

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 225 (20.879)

*30 noyabr 2013-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Noyabrın 29-da Litvanın paytaxtı Vilnüsdə Avropa İttifaqının III "Şərq tərəfdaşlığı" Sammiti keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak etmişdir.

Litva Prezidenti Dalya Qribauskayte, Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuy və Avropa Komissiyasının sədri Xose Manuel Barrozu Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət və hökumət başçılarını qarşıladılar.

Mərasimdə Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında viza rejiminin sadələşdirilməsi haqqında Saziş imzalandı.

* * *

Noyabrın 29-da Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın görüşü olmuşdur.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Vilnüsdə İspaniya Krallığının Baş naziri Mariano Rahoy Brey ilə görüşmüşdür.

* * *

Noyabrın 29-da Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Estoniya Respublikasının Baş naziri Andrus Ansip ilə görüşü olmuşdur.



# Naxçıvan şəhərindəki 32 nömrəli yaşayış binası istifadəyə verilmişdir

Noyabrın 29-da Naxçıvan şəhərinin Heydər Əliyev prospektindəki 32 nömrəli yaşayış binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açılış mərasimində çıxış edərək demişdir ki, Naxçıvan şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına diqqət göstərilir. 2013-cü ildə bu sahədə görülən işlər çərçivəsində Naxçıvan şəhərində yeni yaşayış kompleksi istifadəyə verilmiş, 12 binada təmir işləri aparılmış, 78 binada istilik sistemləri tamamilə yenilənmiş, 20 binanın su xətti dəyişdirilmiş, mənzilləri istiliklə təmin etmək üçün 11 fərdi qazanxana tikilərək istifadəyə verilmişdir. Hazırda 5 yaşayış binasında təmir işləri davam etdirilir. Bu gün istifadəyə verilən 32 nömrəli binanın əsaslı yenidən qurulması da bu sahədə görülən işlərin davamıdır.

Binanın sakini Hüseyn Nuriyev yaradılan şəraitə görə sakinlər adından minnətdarlıq etmiş, Naxçıvan şəhərində yaşayış binalarının ən müasir tələblər səviyyəsində yenidən qurulmasını dövlətimizin insanların yaşayış şəraitinin yaxşılaşdırılmasına göstərdiyi qayğı kimi dəyərləndirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binanın istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edərək demişdir: "Mənzil hər bir insanın həyatında xüsusi əhəmiyyətə malikdir. Çünki rahat mənzil həm də xoş və firavan həyatın təmin olunması deməkdir. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda insanların hərtərəfli sosial qayğı ilə təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Son illər yaşayış məntəqələrində yaşayış və məktəb binalarının, səhiyyə ocaqlarının tikilməsi, müasir yolların çəkilməsi, yeni iş yerlərinin açılması əhalinin rifah halının yüksəldilməsinə və rahatlığının təmin olunmasına səbəb olmuşdur. Eyni zamanda mövcud yaşayış binalarında əsaslı təmir və yenidənqurma işlərinin aparılması sakinlərin mənzil-məişət şəraitini yaxşılaşdırmışdır".







Ali Məclisin Sədri demişdir: "Naxçıvan şəhəri qədim tarixə malikdir. Bu tarixi özündə yaşadan abidələrin, yaşayış binalarının təmir və yenidən qurulması mühüm əhəmiyyət daşıyır. 1920-ci ildə istifadəyə verilən 32 nömrəli yaşayış binası bugünkü tələblərə cavab vermirdi. Ona görə də bu il binada əsaslı yenidənqurma işləri aparılmış, binaya əlavə bir mərtəbə də artırılmış, lazımi kommunal-məişət şəraiti yaradılmışdır. Görülən işlər bina sakinlərinin rahatlığının təmin olunmasına imkan verəcəkdir".

Ali Məclisin Sədri sakinləri yeni mənzillərlə təmin olunmaları münasibətilə bir daha təbrik etmiş, onlara rahat həyat arzulamışdır.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini sakinlərə təqdim etmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, əvvəllər 2 mərtəbədən ibarət olan binaya mansardtipli 1 mərtəbə də əlavə olunmuşdur. Binada elektrik, qaz, rabitə, su və kanalizasiya xətləri yenilənmiş, mərkəzləşmiş antena sistemi quraşdırılmışdır. Bununla yanaşı, binada bütün evlər daimi isti və soyuq su ilə təmin edilmişdir. Dəmir-beton konstruksiyalarla möhkəmləndirilən binanın fasadı milli memarlıq ənənələrinə uyğun olaraq üzlənmişdir.

Binanın həyatində də abadlıq işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Səfir Naxçıvanın təhsil və istehsal müəssisələri ilə tanış olub

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı səfiri İrfan Siddiq Naxçıvan Muxtar Respublikasına səfərinin ikinci günü, dünən Naxçıvan Dövlət Universitetinə gəlib. Səfir Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsindəki Geologiya, minerologiya və yerşünaslıq, habelə Botanika və zoologiya muzeylərində, Beynəlxalq münasibətlər və xarici dillər fakültəsindəki Tərcümə-Tədris Mərkəzində, Cənubi Koreya Mədəniyyət və Dil Tədrisi mərkəzlərində olub.

Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin tələbələri ilə görüşən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İrfan Siddiq tələbələri maraqlandıran sualları cavablandırıb.

Həmin gün səfir Culfa beynəlxalq sərhəd-buraxılış məntəqəsi ilə tanış olub, muxtar respublikanın bir neçə sənaye müəssisəsini gəzib. Səfirin ilk baş çəkdiyi ünvan "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti olub. Sonra səfir "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətində, Naxçıvan Avtomobil Zavodunda olub, bu müəssisələrin istehsal gücü, avadanlıq təminatı, ixrac imkanları ilə maraqlanıb.

**Xəbərlər şöbəsi**

# Sığorta fəaliyyəti uğurla davam etdirilir

***Cəmiyyət inkişaf edib, insanların rahat həyat və fəaliyyəti təmin olunduqca bir sıra mühüm iqtisadi münasibətlər də özünün yeni təkmilləşmə mərhələsinə qədəm qoyur. İnkişafa doğru atılan hər addım insan həyatının rahat və təhlükəsiz keçməsi üçün zəruri olan məsələlərin tam və zamanında həll olunmasına xidmət edir. Əgər bu günün işini sabaha qoymamaq inkişafın mühüm bir tezisidirsə, sabahın risklərini də bu gündən zəmanət altına almaq insanın həyat və fəaliyyətinin təhlükəsizliyinin təmin olunmasına xidmət edən mühüm bir çağırışdır. Bu cəhətdən sığorta fəaliyyətinin insanların sosial müdafiəsindəki rolu şəksizdir. Muxtar respublikamızda həyatın bütün sahələrində olduğu kimi, sığorta işinin də təkmilləşdirilməsi istiqamətində görülən bütün məqsədyönlü tədbirlərin müsbət sosial səmərəsi bu gün bunları deməyə əsas verir.***

Şübhəsiz, sığortanı təkcə iqtisadi fəaliyyətlə əlaqələndirmək, onu bu sahənin bir tənzimləyici vasitəsi kimi təqdim etmək düzgün olmazdı. Müasir dünyada sığorta münasibətləri təkcə iqtisadi fəaliyyət sferasında deyil, eyni zamanda insan həyatının və fəaliyyətinin bütün sahələrində tətbiq edilir. Çünki cəmiyyət inkişaf edir və gəlinən nəticə artıq odur ki, insanları təkcə işgüzar fəaliyyət zamanı deyil, eyni zamanda həyatın bütün dövrlərində rast gəlinə bilən arzuedilməz hadisələrdən də sığortalanmaq maraqlandırır. Belə ki, hər gün hər yerdə baş verə bilən müxtəlif təbii hadisələrlə bərabər, cəmiyyətin də sürətli inkişafı ilə əlaqədar müxtəlif yerlərdə – evdə, işdə, yolda rast gəlinən riskli hadisələr nəticəsində insanlara maddi zərərlər dəyir, onlar xəsarət alır, sağlamlıqlarını itirirlər. Bunların əvəzinin ödənilməsi və zərərə uğramış vətəndaşlara maddi dəstəyin göstərilməsi baxımından sığortanın oynadığı rol əvəzsizdir. İndi vətəndaşlar ola biləcək bu riskləri vaxtında sığortalamaqla onlara dəyə biləcək zərərlərin özləri tərəfindən deyil, sığorta agentliyi tərəfindən ödənilməsinə maraqlıdırlar.

Ölkəmizdə və muxtar respublikamızda iqtisadi və sosial həyatın müxtəlif sahələrində əldə olunmuş dinamik inkişaf öz nəticəsini sığorta sahəsində də işlərin genişləndirilməsində göstərir. Sığorta fəaliyyətinin günün tələbləri səviyyəsində yenidən təşkil olunması, sığortanın dünyanın bir çox yerlərində tətbiq olunan forma və növlərinin genişləndirilməsi bugünkü real həyatın zəruri şərtlərindəndir. Məhz buna görə də iki il bundan əvvəl – 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə” keçirilən müşavirədə muxtar respublikada sığortanın inkişafının mövcud vəziyyəti ətraflı müzakirə olunmuş, sığortanın bütün növlərinin inkişafının təmin edilməsi, hüquqi və fiziki şəxslərin xidmətin bu növündən faydalanması üçün geniş izahat-təbliğat işinin aparılması, aidiyyəti orqanlar tərəfindən qanunamüvafiq tədbirlər görülməsi barədə mühüm və zəruri tapşırıqlar verilmişdir. Həmin müşavirədən sonra muxtar respublikada sığortanın bütün növlərinin inkişafı üçün yeni mərhələ başlanmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən aldığımız məlumata görə, ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında sığorta fəaliyyətinin genişləndirilməsi istiqamətində mühüm işlər həyata keçirilmişdir. Muxtar respublikada daşınmaz əmlakın, avtomobil nəqliyyatı sahiblərinin mülki məsuliyyətinin, habelə istehsalatda baş verən bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta tədbirləri üzrə xeyli işlər görülmüşdür. Bunlardan başqa, muxtar respublikamızda əhalinin könüllü sığortanın müxtəlif növləri – fərdi qəza, əmlakın yanğın və digər risklərdən sığortalanması, avtonəqliyyat vasitələrinin tam sığortası və digər mühüm könüllü sığorta növləri əhali arasında geniş təbliğ olunmuş, tədbirlər həyata keçirilmişdir.

Bu müddət ərzində avtomobil nəqliyyatı sahiblərinin mülki məsuliyyətinin sığortalanması məqsədilə Dövlət Yol Polisi ilə birgə tədbirlər həyata keçirilmiş və müntəzəm reydlər aparılmışdır. Daşınmaz əmlakın icbari sığortasının aparılması üçün yerli icra hakimiyyətləri və Fövqəladə Hallar Nazirliyi ilə birlikdə ardıcıl tədbirlər həyata keçirilmişdir. Görülmüş işlərin nəticəsi olaraq, muxtar respublikamızda daşınmaz əmlakın (yaşayış evi və mənzillərin) icbari sığortaya cəlb edilməsi xeyli artırılmışdır. Hazırda muxtar respublikada hərəkətdə olan əksər nəqliyyat vasitələrinin sahibləri avtonəqliyyat vasitəsinin sahibi kimi mülki məsuliyyətini icbari sığorta etdirməklə öz risklərini zəmanət altına almışlar. Eynilə muxtar respublikada sənayedə, nəqliyyatda, kənd təsərrüfatında, dövlət, qeyri-dövlət müəssisələrində, sahibkarlıq obyektlərində çalışan işçilər istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari qaydada sığorta olunmuşlar.

Sığorta fəaliyyətinin genişləndirilməsinin nəticəsidir ki, sığorta müqavilələrinin sayında artım müşahidə olunmaqdadır. Əhalinin bu sahədə maariflənməsi və sığorta agentliklərinin apardığı işlərin nəticəsi olaraq, hər il daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası və istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalar üzrə artım müşahidə olunmuşdur. Belə ki, 2011-ci illə müqayisədə muxtar respublikada sığorta haqlarının toplanması 2,5 dəfə artmışdır.

Görülən işlərin nəticəsi kimi, sığorta fəaliyyətinin sosial səmərəsi də hər keçən dövr ərzində daha qabarıq görünməkdədir. Bu müddət ərzində vətəndaşların mülkünə, həyatına və sağlamlığına dəymiş zərərlərə görə verilən sığorta ödənişləri təqribən 2,2 dəfə artmışdır.

Bütün bunlar muxtar respublikada sığorta fəaliyyətinin genişləndirilməsinə göstərilən dövlət qayğısının nəticəsində mümkün olmuşdur. Muxtar respublikada Dövlət Baş Sığorta Agentliyi üçün yeni bina inşa olunmuş, Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinə və rayon, şəhər dövlət sığorta agentliklərinə yeddi ədəd xidməti avtomobil verilmiş, bütün işçilər kompüterlərlə təmin olunmuşlar. Əhali ilə aparılan işin səmərəsini artırmaq, sığorta müqavilələri bağlamaq üçün müraciət edən vətəndaşlara operativ xidmətlər göstərilməsi üçün müasir iş şəraiti yaradılmışdır. Bütün bunlar muxtar respublikamızda sığorta fəaliyyətinin daha da genişləndirilməsi və əhaliyə göstərilən sığorta xidmətlərinin növünün və keyfiyyətinin artırılmasına öz müsbət təsirini göstərməkdədir.

# Qış aylarında əhalinin meyvə-tərəvəzlə təminatı diqqət mərkəzindədir




***Qış fəsli yaxınlaşdıqca onun qayğıları da artır. Qışın öz gözəlliyi olsa da, bu fəslin adamı çətin vəziyyətə sala biləcək sürprizləri də az olmur. Ona görə də qışda tam rahat həyatı təmin edə bilmək üçün hazırlıqlara lap erkəndən, hələ yay bitməmişdən başlanılır. Naxçıvan kimi iqlimi kəskin kontinental, yəni yayı isti, qışı da ki sərt soyuq olan bir yerdə qışa hərtərəfli hazırlaşmaq bütün təsərrüfat və rəhbər işçilərin əsas qayğılarından biri olur.***

Muxtar respublikada qışa etibarlı hazırlaşmaq, payız-qış mövsümündə əhalinin tələbatlarını tam ödəyə bilmək üçün görülən bütün tədbirlərin məqsədi də bu mühüm mərhələni heç bir çətinlik olmadan başa vura bilməkdir. Qış boyu alıcıları təzə meyvə-tərəvəzlə də təmin edə bilmək üçün mövcud soyuducu anbarların və istixana komplekslərinin gücündən tam istifadə edə bilmək, bazarda bolluq yaratmaq da hazırda diqqət mərkəzində olan məsələlərdəndir.

İstehlak bazarında, xüsusən ərzaq məhsulları bazarında mövsümi məsələləri həll etmək üçün soyuducu anbarların mühüm rolu vardır. Anbar təsərrüfatının iqtisadi inkişafda, bazarda tələb və təklifin tarazlığındakı roluna baxsaq, görərik ki, ilk baxışda sadə görünən bu sahənin fəaliyyəti düzgün tənzimləndikdə digər sahələrin işinə də öz müsbət təsirini göstərir. Xüsusən kənd təsərrüfatında mövsümilik məhsulların saxlanılması, onların emala və ya satışa göndərilməsinədək anbarlar öz vacib funksiyasını həyata keçirir. Eyni fikirləri qışın sərt keçən aylarında təzə tərəvəz məhsulları ilə bazarı təmin edən istixanalar haqqında da söyləmək olar. Naxçıvanda bu kimi məsələlərin vacibliyinin vaxtında qiymətləndirilməsinin nəticəsidir ki, istər soyuducu anbar, istərsə də istixana təsərrüfatları yaradılması sahəsində müsbət nəticələr əldə olunmuş və bu istiqamətdə işlər uğurla davam etdirilir.

Bəs bu il Naxçıvanda bazarın təminatı necə olacaq? Bu sualla Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinə müraciət etdik. Qurumdan aldığımız məlumata görə, hazırda muxtar respublikada ümumi tutumu 11 min 770 ton olan 14 soyuducu anbar fəaliyyət göstərir. Bundan ümumi tutumu 7 min ton olan 5 soyuducu anbar məxsus olduğu şirkətlərin fəaliyyəti ilə bağlı müxtəlif məhsulların dövriyyəsi üzrə ixtisaslaşmışdır. Ümumi tutumu 4770 ton olan digər 9 soyuducu anbar isə meyvə-tərəvəz məhsullarının tədarükü üzrə ixtisaslaşmışdır. Bu anbarlara 1 iyul 2013-cü il tarixdən 21 noyabr 2013-cü il tarixədək 2555,19 ton məhsul tədarük olunmuşdur. Nəzərə alınmalıdır ki, tədarük xüsusilə ilin son üç ayını əhatə etsə də, tələbatın daha dolğun ödənilməsi məqsədilə bütün il ərzində davamlı olaraq tədarük və bazarın tənzimlənməsi həyata keçirilir. Belə ki, bu müddət ərzində anbarlara 1830,03 ton kartof, 214,52 ton soğan, 257,49 ton alma və digər kənd təsərrüfatı məhsulları tədarük olunmuşdur. Anbarlara tədarük olunan məhsulların keyfiyyəti də diqqət mərkəzində saxlanılmış, “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin laboratoriyası tərəfindən soyuducu anbarlara tədarük olunan və anbarlarda saxlanılan məhsullardan 28 halda kartof, 22 halda soğan, 14 halda alma məhsullarından orta nümunələr götürülərək keyfiyyət göstəriciləri təhlil edilmiş, göstəricilərin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyənləşdirilmişdir.

Muxtar respublika əhalisinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunmasında istixana kompleksləri də mühüm əhəmiyyət kəsb edir. Bu sahəyə göstərilən diqqət və qayğı nəticəsində bu gün muxtar respublikada tərəvəz yetişdirən istixana komplekslərinin sayı 11-ə, ümumi sahəsi isə 51.796 kvadratmetrə çatmışdır. Bu tədbirlərin davamı olaraq, 2013-cü ilin ötən dövrü ərzində muxtar respublikanın müxtəlif rayonlarında 4 sahibkarlıq subyektinə soyuducu anbarların qurulması üçün cəmi 111,5 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar istixana komplekslərində 48.928 kvadratmetr sahədə əkin aparılmış və bu tədbirlər mərhələli olduğu üçün hazırda bunlar davam etdirilir. Ümumiyyətlə isə 1 sentyabr-21 noyabr 2013-cü il tarixlərində muxtar respublikadakı istixanalarda 46.104 kiloqram məhsul istehsal olunaraq satışa çıxarılmışdır.

# Budəfəki seminar-müşavirə Kəngərli rayonunda olub

***Dünən Kəngərli rayonunda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin təşkilatçılığı ilə “Bələdiyyə mülkiyyətinin idarə olunmasının xüsusiyyətləri” mövzusunda seminar-müşavirə keçirilib. Rayonun bələdiyyə sədrlərinin iştirak etdiyi tədbiri Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səxavət Həsənov açıb.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin məsləhətçisi, kiçik ədliyyə müşaviri Səttar Zamanovun “Bələdiyyələrdə mülkiyyət hüququnun həyata keçirilməsi ilə bağlı qanunvericiliyin tələbləri”, Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin şöbə müdiri İntizar Həziyevin “Bələdiyyə torpaqlarından istifadə edilməsi və mühafizəsi”, Ədliyyə Nazirliyinin Qanunvericilik şöbəsinin rəisi, ədliyyə müşaviri Ayaz Məhərrəmovun “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun mahiyyəti və tələbləri” mövzularında məruzələri dinlənilib.

Məruzələrdə qeyd edilib ki, bələdiyyələrin fəaliyyəti zamanı işin şəffaf təşkil edilməsi, yerli əhalinin yerli özünüidarəetmə orqanının fəaliyyəti ilə yaxından məlumatlandırılması üçün şəraitin yaradılması mühüm vəzifələrdən biri olmalıdır. Çünki bələdiyyələr yerli əhalinin yaranacaq problemləri ilə daha yaxından məlumatlı olduqlarından bu problemlərin daha tez və daha düzgün həllinə dair əhəmiyyətli qərarlar qəbul edirlər. Bələdiyyə mülkiyyətinin formalaşdırılmasının hüquqi əsasları Azərbaycan Respublikası Konstitusiyası, bələdiyyələr haqqında qəbul edilmiş qanunlar və digər müvafiq normativ-hüquqi aktlarla tənzimlənir.

Vurğulanıb ki, bələdiyyə mülkiyyətinə verilən torpaqlara ümumi istifadədə olan, fiziki və hüquqi şəxslərin icarəsindəki və ehtiyat fondu torpaqlar aiddir. Bələdiyyə torpaqlarının idarə edilməsi Azərbaycan Respublikasının Torpaq və Mülki məcəllələri, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu, “Bələdiyyə əraziləri və torpaqları haqqında” və “Şəhərsalma əsasları haqqında” Azərbaycan Respublikasının qanunları və torpaq münasibətlərini tənzimləyən Azərbaycan Respublikasının digər normativ-hüquqi aktları əsasında aparılır. Bələdiyyə mülkiyyətində olan torpaqlara sərəncam verilməsini, həmin torpaqların istifadəsi və mühafizəsi sahəsində idarəetməni bələdiyyələr həyata keçirirlər.

Bildirilib ki, bələdiyyə mülkiyyətində olan əmlakın formalaşdırılmasında bələdiyyələrin fəaliyyəti nəticəsində əldə edilən əmlak xüsusi yer tutur. Bu əmlakın formalaşması, əsasən, bələdiyyələrin səlahiyyətlərinə uyğun olaraq, yerli sosial müdafiə və sosial inkişaf proqramının həyata keçirilməsi prosesində reallaşa bilər.

Sonra mövzular ətrafında müzakirələr aparılıb. Sonda iştirakçılara “Bələdiyyələrdə mühasibat uçotunun təşkili” haqqında kitabçalar paylanılıb.

# Muxtar respublikada 14 min hektardan çox sahədə taxıl əkini aparılıb

2013-cü təsərrüfat ilini yüksək göstəricilərlə başa vuran muxtar respublikanın torpaq mülkiyyətçiləri yenə də sahələrdədir. Onlar 2014-cü ilin bol məhsulunun əsasını qoymaq üçün vaxtdan səmərəli istifadə etməyə çalışırlar. Qeyd edək ki, vaxtında keyfiyyətli toxum sortları əldə edilib, ehtiyat hissələri və yanacaq tədarükü qayğısına qalınıb. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, taxıl əkini kampaniyasının vaxtında başa çatdırılması üçün əvvəlcədən həyata keçirilən belə hazırlıq tədbirləri əkin kampaniyasında mütəşəkkilliyin təmin edilməsində mühüm rol oynayır.

Bunun nəticəsidir ki, 27 noyabr 2013-cü il tarixə 16 min 200 hektar sahədə şum qaldırılması başa çatdırılıb. Həmin sahələrin 14 min hektarına toxum səpilib. Əkilmiş sahələrin 10 min hektarının suvarılması təmin olunub.

Şum qaldırılması, taxıl əkini və əkilmiş sahələrin suvarılması davam etdirilir.

# Ərəbyengicə abidəsində yeni arxeoloji tədqiqatlar aparılıb

***Tarixin bütün dövrlərini əks etdirən abidələrlə zəngin olduğuna görə Şəruru təbii arxeoloji muzey adlandırmaq olar. Bu "muzeyə" daxil olan arxeoloji abidələr Arpaçay vadisi boyu maraqlı bir qanunauyğunluqla düzülmüş və uzaq Daş dövrünü əks etdirən Qazma mağarasından başlayaraq Eneolit, Tunc, Dəmir dövrləri, Antik dövr də daxil olmaqla, uzun bir yol keçməklə Naxçıvanda məskunlaşmış qədim tayfaların möhtəşəm maddi-mədəniyyət nümunələrini torpağın dərin qatlarında mühafizə etmişdir. Arpaçay vadisində Ovçular təpəsi, Ərəbyengicə, Xələc, Oğlanqala, Qızqala, Şortəpə, Yaycı nekropolu, Dizə nekropolu və digər unikal abidələr vardır.***

Sovetlər dönəmində unutdurulmağa çalışılan bu abidələrin üzə çıxarılması və dərindən araşdırılması müstəqilliyimizin bərpasından sonra mümkün olmuşdur. XXI əsrin əvvəllərindən başlayaraq bu proses daha intensiv xarakter almışdır.

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin rəhbərliyi altında AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası təşkil edilmişdir. Arpaçay vadisinin monumental abidələrindən olan Ərəbyengicə yaşayış yeri bu il yenidən tədqiqat obyektinə çevrilmişdir.

Arpaçayın Araza töküldüyü yerdən bir qədər aralıda yerləşən Ərəbyengicə yaşayış yeri təqribən 0,8 hektar sahəni əhatə edir. Vaxtı ilə burada arxeoloji qazıntılar aparılmış (1984-1986-cı illərdə və 2008-ci ildə A.Q.Seyidov, V.B.Baxşəliyev tərəfindən) və Erkən Tunc dövrünə aid dən daşları, sürtgəc və keramikadan ibarət olan xeyli yerüstü material toplanmışdır. Lakin sonralar burada tədqiqatlar davam etdirilməmişdir.

2013-cü ilin sentyabr-oktyabr aylarında AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin əməkdaşlarından ibarət olan arxeoloji ekspedisiya Ərəbyengicə yaşayış yerində yeni arxeoloji qazıntılar aparmış, Erkən Tunc dövrünə aid tapıntılar əldə etmişdir. Abidənin tapıntıları, əsasən, Erkən Tunc dövrünü əks etdirən keramika, sümük, dairəvi və düzbucaqlı tikili qalıqları, ocaq yerləri, dairəvi və dördkünc formalı manqallar, əmək alətlərindən ibarətdir. Tədqiqat zamanı həmçinin Orta Tunc dövrünə aid qəbir abidələri də aşkara çıxarılmışdır.

Arxeoloji qazıntı zamanı əldə edilən materiallar AMEA Naxçıvan Bölməsinin Arxeologiya və etnoqrafiya muzeyinə təhvil verilmişdir. Əksəriyyəti keramika nümunələrindən, həmçinin sümüklər, əmək alətləri, ocaq qurğularından ibarət olan bu tapıntılar yeni elmi nəticələrin üzə çıxarılmasına stimul vermişdir.

Ərəbyengicədə aparılan yeni qazıntıların materiallarının təhlili bu abidənin tarixləndirilməsinə yeni prizmadan baxılmasını zəruri edir. Budəfəki arxeoloji qazıntılar əvvəlki arxeoloji tədqiqatlardan fərqli olaraq, bu abidənin yalnız Eneolit və Erkən Tunc dövrünü deyil, eyni zamanda Orta Tunc dövrünü də özündə birləşdirdiyini sübuta yetirmişdir. Buradan tapılan qəbirlər və bəzi keramika nümunələri bu fikri təsdiq edə bilər.

Tədqiqatlar eyni zamanda Kür-Araz arxitekturası haqqında olan mülahizələrə də yeni yanaşma tərzini ortaya qoyur. Son Eneolit və Erkən Tunc dövrlərində yarımdairəvi tikililərlə yanaşı, düzbucaqlı tikililərin də geniş yayılması bu abidənin timsalında öz təsdiqini tapmış olur. Bu ərazidə tədqiqatların davam etdirilməsi qədim Naxçıvan diyarının, o cümlədən onun qərb hissəsini təşkil edən Arpaçay vadisinin tədqiqində yeni səhifələr aça bilər.

Ərəbyengicədə aparılan tədqiqatların elmi əhəmiyyətindən başqa, mənəvi-psixoloji təsiri də böyükdür. Belə ki, əvvəllər bəzi abidələrin talançılıq məqsədilə dağıdılması cəhdləri tədricən tariximizə, arxeoloji qazıntılara olan maraqla, onların qorunması ilə əvəz edilir. Kənd sakinlərinin, demək olar ki, hər gün abidə ilə maraqlanması, məktəblilərin dərsdən sonra bura gəlməsi, hətta bəzi valideynlərin öz övladının arxeoloq olmasını arzu etməsi burada aparılan tədqiqatların uğurlarından sayıla bilər. Çünki yaşadığı bölgənin torpaq altında yatan tarixini və bunu üzə çıxaran arxeoloqların xidmətini gözləri ilə görən yerli əhali yaddaşlarında qalmış bəzi lazımlı informasiyaları çatdırmaqla əllərindən gəldiyi qədər yardımçı olmağa can atırdılar.

**Zeynəb QULİYEVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru***

# Elmi konfrans keçirilib

"2013-cü ildə Azərbaycan öz peykini orbitə göndərməklə dünyanın kosmik sənayeyə sahib olan ölkələrindən birinə çevrildi. Bu sahənin davamlı inkişafı isə alimlərin və mütəxəssislərin tədqiqatlarını stimullaşdırmaqla bərabər, elm adamlarının da üzərinə böyük vəzifələr qoyur. Batabat Astrofizika Rəsədxanasının imkanlarından istifadə etməklə bu sahədə tədqiqatlar aparan naxçıvanlı elm adamları da tədqiqatların genişləndirilməsinə xüsusi diqqət yetirməlidirlər". "Günəş sisteminin dinamikasının tədqiqində son nailiyyətlər" adlı elmi konfransda bu fikirləri AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev səsləndirib. O qeyd edib ki, göstərilən dövlət dəstəyi və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birbaşa diqqət və qayğısı ilə getdikcə texniki imkanların daha da genişlənməsi, maddi-texniki bazanın gücləndirilməsi imkan verir ki, Naxçıvanda bu sahədə tədqiqat aparan elm adamları tədqiqatlarının nəticələri haqqında elmi konfranslar və seminarlarda elmi ictimaiyyətə daha geniş məlumat versinlər. Təşkil edilən bu konfrans da bu istiqamətdə atılan ilk addımlardan biri hesab edilə bilər.

Konfransda AMEA Naxçıvan Bölməsi Batabat Astrofizika Rəsədxanasının direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Qulu Həziyev "Günəş sisteminin ümumi xarakteristikası və dinamik xüsusiyyətləri", rəsədxananın elmi işlər üzrə direktor müavini, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Azad Məmmədli "Yuli tarixi və onun hesablanması alqoritmi haqqında", rəsədxananın böyük elmi işçisi, fizika üzrə fəlsəfə doktoru Əlövsət Dadaşov "Asteroid-komet" təhlükəsizliyi probleminə müasir baxışlar" mövzularında maraqlı elmi məruzələr edib, elektron lövhə vasitəsilə fotoslaydlarla mövzulara əyani şəkildə aydınlıq gətiriblər.

Məruzəçilər tərəfindən konfrans iştirakçılarını maraqlandıran suallar cavablandırılıb. Elmi konfransın sonunda Günəş sisteminə aid videofilm nümayiş etdirilib.

**Elnur KƏLBİZADƏ**

# Məktəbdə psixoloji xidmətin aktual problemləri və müasir fənn kurikulumlarının tətbiqi

***Naxçıvan Türk Liseyində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Müəllimlər İnstitutu "Məktəbdə psixoloji xidmətin aktual problemləri və müasir fənn kurikulumlarının tətbiqi" mövzusunda birgə elmi-praktik konfrans keçirib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Türk Liseylərinin baş direktoru Həsən Avcı açaraq konfransda məruzə olunacaq mövzular və müzakirə ediləcək məsələlər haqqında məlumat verib, bu təhsil ocağında psixoloji xidmətin təşkili və fənn kurikulumlarının tətbiqi barədə danışıb.

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli "Məktəbdə psixoloji xidmətin aktual problemləri" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi bildirib ki, ümumtəhsil məktəblərinin vəzifəsi və məqsədi təhsil alanların ayrı-ayrı fənlər üzrə bilik və bacarıqlarının formalaşmasını, idrak fəallığının və məntiqi təfəkkürünün inkişafını təmin etməkdən, onları psixoloji baxımdan gələcəyin əsl vətəndaşı kimi hazırlamaqdan ibarətdir. Bu gün yetişməkdə olan nəslin inkişafını, tərbiyəsini düzgün təşkil etmək, sürətlə artan elmi-texniki yeniliklərin əsaslarını onlara mənimsətmək üçün uşaqların dərk etmə imkanlarını, idrak proseslərinin inkişaf qanunauyğunluqlarını və bu prosesin necə aşılanması və tərbiyə edilməsini bilmək zəruridir.

Məruzədə qeyd edilib ki, günün aktual mövzularından biri də məktəbdə psixoloji xidmətin səviyyəsidir. Hər bir məktəbdə psixoloji xidmətin olması mütləqdir. Çünki insanın inkişaf dövrünün bəzi böhranlı mərhələləri var ki, bunlar məhz məktəb illərinə təsadüf edir. Odur ki, şagirdlərin qarşısına çıxan problemlərin məktəb psixoloqunun köməyilə düzgün diaqnostika və korreksiya edilməsinə böyük ehtiyac duyulur. Məktəb psixoloqunun ən çox problemlə qarşılaşdığı yaş dövrü yeniyetməlik yaş dövrüdür. Bu dövr 11-15 yaşlarını əhatə edir. Bu dövrdə şagirdlərdə yeni xüsusiyyətlər formalaşır, onlar baş verən proseslərə daha aqressiv reaksiya göstərirlər. Şagirdlərin bu aqressiv davranış reaksiyaları psixoloqlar tərəfindən korreksiya olunmalıdır. Əgər onlarla düzgün iş aparılarsa, bu xüsusiyyətlər tədricən aradan qalxar. Əks halda, aqressiv davranış reaksiyaları xarakter xüsusiyyəti kimi formalaşa bilər.

Bundan başqa, məktəb psixoloqu həmçinin təlimdə geri qalan və intizamsız şagirdlərlə diaqnostik-korreksiya işi aparılmasında, şagirdlərin təlim-tərbiyə prosesinin normal gedişinə mane olan intellektual, şəxsi və emosional-iradi xüsusiyyətlərinin diaqnostika edilməsində, uşaqların təlim-tərbiyəsinin psixoloji problemləri, hafizəsinin, təfəkkürünün, xarakterinin inkişafı sahəsində ciddi işlər aparılmasında yaxından iştirak edir. Bütün bunları nəzərə aldıqda bəlli olur ki, məktəblərdə psixoloq fəaliyyətinə böyük ehtiyac var. Şagirdlərin təlim-tərbiyəsində məktəb rəhbərliyi, müəllimlər və valideynlərlə birgə psixoloqların da iştirakı mühüm şərtdir.

"Fərdi pedaqoji sahədən fərqli olaraq, təhsilin təşkili sahəsində praktik psixologiyadan istifadə daha mühümdür",– deyən Oruc Həsənli vurğulayıb ki, bunun üçün hər bir müəllim öz işini psixoloqun dəstəyilə qurmalıdır. Məktəb psixoloqunun işinin əsas qayəsi fərdi yanaşma əsasında problemin həllinə nail olmaq üçün yaxşı müşahidəçi olmaq, psixoloji üsul və vasitələri sərbəst həyata keçirməyi bacarmaqdır.

Elmi-praktik konfransda Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin şöbə müdiri Firudin Zamanovun, Naxçıvan Müəllimlər İnstitutunun Kurikulum Mərkəzinin metodisti Rafiq Hüseynovun, Naxçıvan Türk Liseyinin direktoru Məhəmməd Dabançalının, Ordubad Qız Liseyinin direktoru Saleh Sezerin, Şərur Türk Liseyinin direktor müavini Ərdal Üzelin, Naxçıvan Müəllimlər İnstitutunun metodisti Tamara Baxşəliyevanın məruzələri də dinlənilib. Məruzələrdə kurikulumun öyrənilməsi və tətbiqi, yuxarı sinif şagirdlərində tolerantlıq şüurunun formalaşdırılması, elektron lövhənin və yeni pedaqoji texnologiyaların təlim prosesində rolu, müasir fənn kurikulumları və onların tətbiqinin şagirdlərin psixoloji inkişafına təsiri haqqında söhbət açılıb.

Sonra məruzələr ətrafında fikir mübadiləsi aparılıb.

**Səbuhi HÜSEYNOV**

# 1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günüdür

***Hər il dekabrın 1-i "Ümumdünya QİÇS-lə Mübarizə Günü" kimi qeyd edilir. Bu günün qeyd olunmasında məqsəd dünya ictimaiyyətinin diqqətini bəşəriyyəti narahat edən bu qlobal problemə yönəltməkdən, insanları maarifləndirməkdən ibarətdir.***

XX əsrdə bəşəriyyətin qarşılaşdığı ən böyük problemlərdən biri QİÇS – qazanılmış immun çatışmazlığı sindromudur. Çünki qazanılmış immun çatışmazlığı sindromu eyniadlı virus – insanın immun çatışmazlığı virusu (İİV) tərəfindən törədilən ən təhlükəli infeksion xəstəliklərdəndir. Adından da göründüyü kimi, QİÇS insanla doğulan, insana xas xəstəliklərdən deyil. O, sonradan tutulan xəstəlikdir. Narkomaniya, qeyri-sağlam həyat tərzi, antisanitariya, natəmizlik – bütün bunlar QİÇS-in yaranmasına və yayılmasına səbəb olur.

Bir sıra Avropa ölkələrində bu xəstəliyə mübtəla olanların vəziyyətini yaxşılaşdırmaq, cəmiyyətin onlara münasibətini dəyişdirmək üçün müxtəlif vasitələrdən istifadə edilir, tibbi yardımlar göstərilir. QİÇS-in epidemiya kimi ilk dəfə harada aşkarlanmasından asılı olmayaraq, o, indi heç bir sərhəd tanımır, heç bir milli, dini ayrılığa fərq qoymadan yer üzündə tüğyan etməkdədir. Bəlkə, elə bu xüsusiyyətinə görə o, əsrin bəlalarından biri hesab olunur. Qloballaşan dünyada getdikcə güclənən miqrasiya prosesləri də epidemiyanın sürətlə yayılmasına rəvac verir. Hazırda dünyada milyonlarla insan bu virusun daşıyıcısıdır.

Xəstə şəxslərlə təsadüfi əlaqələr QİÇS-ə yoluxmanın əsas səbəblərindən biridir. Yoxlanmamış donor qanın köçürülməsi zamanı birdəfəlik şprislərin təkrar istifadəsi, steril olmayan tibbi alətlər, narkotik vasitələrin qəbulu, döymə (tatuz), qulaq və bədənin digər üzvlərinin deşilməsi, manikür və başqa gigiyenik tələblərə cavab verməyən əşyalardan istifadə edilməsi də yoluxmaya gətirib çıxara bilər. Xəstə anadan uşaqlara keçən infeksiya da yoluxmada əsas səbəblərdən hesab olunur.

Azərbaycanda bu xəstəliyə qarşı uğurla mübarizə aparılır. Ölkəmizdə virusun daşıyıcısı ilk dəfə 1987-ci ildə aşkarlanıb. Hazırda Azərbaycanda virus yayılma sürətinə görə digər ölkələrlə müqayisədə aşağı səviyyədə olsa da, təhlükə qalmaqdadır. Qeyd edək ki, Azərbaycanda "QİÇS haqqında" qüvvədə olan qanun 1996-cı ildə qəbul olunub. 2010-cu ildə isə qanun layihəsi yenidən işlənərək qanunvericilik bazası daha da zənginləşdirilib. Hazırda ölkədə xəstəliyin qarşısının alınması üçün zərərin azaldılması proqramı da həyata keçirilir. Azərbaycan Respublikası QİÇS-lə Mübarizə Mərkəzində "İnsanın immun çatışmazlığı virusu infeksiyası" diaqnozu ilə dispanser qeydiyyatına götürülən və ehtiyacı olan bütün xəstələrə insanın immun çatışmazlığı virusu QİÇS-lə bağlı diaqnostika, profilaktika, müalicə və qulluq göstərilir. Müalicə nəticəsində immun sistemi bərpa olunur, xəstələnmə və ölüm hadisələri azalır.

Ölkəmizdə həyata keçirilən tədbirlər nəticəsində son illər immun çatışmazlığı virusuna yoluxma səviyyəsi stabildir. Bu gün muxtar respublikamızda da yoluxma səviyyəsinin aşağı olması çox sevindirici haldır. Lakin ərazimizin 3 dövlətlə həmsərhəd olması, MDB və digər ölkələrə gediş-gəlişin artması, əksər ölkələrdə bu xəstəliyin sürətlə çoxalması muxtar respublikada da QİÇS-in yayılmasına səbəb ola bilər. Ona görə də QİÇS-in profilaktikasına dair epidemioloji nəzarət və təbliğat gücləndirilməli, xəstəliyin vaxtında aşkar edilməsi məqsədilə bütün donorlar, ümumiyyətlə, risk qrupuna aid olan bütün şəxslər laborator müayinələrə cəlb edilməlidirlər. Bu işdə isə 2005-ci ilin avqust ayından etibarən fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə və Profilaktika Mərkəzinin üzərinə böyük məsuliyyət düşür. İstənilən şəxs anonim qaydada bura müraciət edib mərkəz tərəfindən QİÇS, Hepatit B, C və digər xəstəliklərin aşkar edilməsi üçün müayinə oluna bilər.

Xəstəliyin qarşısının alınması istiqamətində həyata keçirilən maarifləndirici söhbətlərin də böyük əhəmiyyəti vardır. Miqrasiyanın artdığı bir zamanda əhalini maarifləndirmək hər şeydən vacibdir. Bu məqsədlə mərkəzin işçiləri tez-tez muxtar respublikamızda fəaliyyət göstərən ali və orta təhsil ocaqlarında olur, yeniyetmə və gənclər arasında seminarlar keçirirlər. Xəstəlikdən qorunmaq üçün profilaktika ilə yanaşı, səhiyyə maarifi də gücləndirilməlidir. Bu işə nəinki səhiyyə işçiləri, bütün ziyalılar, hər bir vətəndaş qoşulmalıdır.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə və Profilaktika Mərkəzində 1 dekabr – Ümumdünya QİÇS-lə Mübarizə Günü qeyd edilməklə yanaşı, mübarizə aylığı da keçirilir. Mərkəz hamını bu aylıqda fəal iştirak etməyə çağırır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# 4:1 tərəfə yayılan qələbə

***Futbol üzrə Azərbaycan I divizionunun 12-ci turu çərçivəsində "Araz-Naxçıvan" futbol komandası dünən Mingəçevirdə "Energetik"in qonağı idi. Ötən həftə çətin "Şuşa" qələbəsindən sonra Aran zonasındakı oyun komandamız üçün bir qədər asan oldu. Mingəçevir şəhərində yerli komanda ilə oyunun taleyini muxtar respublika klubu elə ilk hissədəcə həll etdi. Bu qələbə ilə cari mövsümdə məğlubiyyətsizlik seriyasını 12-yə yüksəldən qırmızı-ağlar liderliyini də davam etdirdi.***

İndiyə qədər "Energetik" futbol komandası ilə qarşılaşmayan "Araz-Naxçıvan" Mingəçevirə itkilərlə yollanmışdı. Belə ki, komandanın əsas müdafiəçiləri Mikayıl Rəhimov, Əlimirzə Daşzərini və yarımmüdafiəçi Fərman Qəmbərov bu oyunu buraxmalı olmuşdular. "Şuşa" ilə matçda sarı vərəqə limitini dolduran bu futbolçular baş məşqçi Əsgər Abdullayev tərəfindən heyətə daxil edilməmişdilər. Adıçəkilən oyunçuların olmaması baş məşqçini dəyişiklik etməyə vadar etmişdi. Belə ki, 4-3-3 taktikası ilə meydana çıxan qırmızı-ağlarda müdafiə xətti Ruslan-Cavid-Rəşad-Emin kvartetinə tapşırılmışdı. Yarımmüdafiə xəttində isə Elgün-Eşqin-Elgiz triosu rəqibin müdafiə xəttini yarmağa çalışdı. Həmişə olduğu kimi, qırmızı-ağlar yenə də hücumun sivri ucunda David Canıyevə bel bağlamışdılar. Bəxtiyar Soltanov və Elmin Çobanov isə cinahlardan rəqib qapısına yol tapmağa calışırdılar.

Oyun "Araz-Naxçıvan"ın istədiyi kimi başladı. Son 4 oyunda qapısından 18 top buraxan meydan sahibləri önündə hücum futbolu sərgiləyən qırmızı-ağlar oyunun 15 dəqiqəsi tamam olmamış rəqib qapıçını məyus etməyə müvəffəq oldular. Belə ki, sol cinahdan Emin İmaməliyevin etdiyi asmanı rəqib müdafiəçi açıq şəkildə əli ilə ram etdi. Hakim Sərxan İsmayılov isə tərəddüd etmədən 11 metrlik nöqtəni göstərdi. Topa yaxınlaşan David Canıyev qapıçının əks istiqamətindən topu tora göndərdi – 1:0. Qeyd edək ki, bu, hücumçumuzun cari mövsümdə vurduğu 10-cu qol oldu.



Bundan sonra hücumlarını davam etdirən qonaq komanda bir neçə epizodda hesab arasındakı fərqi artıra bilərdi. Di gəl ki, futbolçuların bir qədər qeyri-dəqiqliyi buna imkan vermədi.

İkinci hissəyə də "Araz-Naxçıvan" yaxşı başladı. Ardıcıl hücumlar nəticəsində David Canıyev oyunda dublunu rəsmiləşdirdi. Belə ki, cərimə zərbəsindən edilən asmanı hamıdan yüksəyə tullanan Ruslan Abıyev başı ilə komanda yoldaşına ideal ötürmə verdi. David isə, öz növbəsində, boş qapını dəqiq nişan almaqda çətinlik çəkmədi – 2:0. Artıq tam rahat olaraq oynayan muxtar respublika klubu 66-cı dəqiqədə qapısında qol gördü. Futbolçumuz Ruslan Abıyev cərimə meydançasından kənarda rəqibə qarşı kobud oynasa da, referi Sərxan İsmayılov 11 metrlik nöqtəni göstərdi.

Hesab arasındakı fərqin minimuma enməsinə baxmayaraq, Naxçıvan təmsilçisi hücumlarına ara vermədi. Nəticədə, oyuna sonradan daxil olan Rəhman Musayev uzun fasilədən sonra qol hesabını açdı. Elvin Cəbrayıllının ideal ara ötürməsini R.Musayev dəqiq zərbə ilə qapıdan keçirdi – 3:1. Mingəçevirə təşrif buyurmuş naxçıvanlı azarkeşlər sevimli komandalarının timsalında daha bir dəfə qol sevinci yaşadılar. Buna kimi isə Eşqin Quliyev daha bir dəfə qapıçını məyus edə bilərdi. Üzbəüz epizodda onun zərbəsi qapıdan azacıq aralı keçdi. Ancaq Emin İmaməliyevin mükəmml qolu stadiona toplaşmış azarkeşləri ayağa qaldırdı. 85-ci dəqiqədə komanda yoldaşından ötürmə alan E.İmaməliyevin uzaqdan zərbə ilə vurduğu top toru silkələdi – 4:1. Bu qələbədən sonra xalını 34-ə yüksəldən "Araz-Naxçıvan" liderliyini bir qədər də möhkəmlətdi.

Qeyd edək ki, "Araz-Naxçıvan"ın növbəti oyunu dekabrın 4-də olacaq. Azərbaycan kubokunun 1/8 final mərhələsində komandamız doğma arenada Zaqatalanın "Simurq" komandasını qəbul edəcək. Oyunun başlama saatı isə $14^{00}$-dür.

**Ceyhun MƏMMƏDOV**

*Yurdumuzun nemətləri*

# Faydalı və şəfalı meyvə

***Torpaq və iqlim xüsusiyyətlərinə görə, Naxçıvan heyva bitkisinin yaxşı inkişafı, bol məhsul verməsi üçün də səciyyəvi region sayılır. Heyva almakimilər yarımfəsiləsinə mənsub çoxillik bitkidir.***




Heyva ağacı işıqlı və münbit şərait yaradıldıqda 5-8 metrədək boy atır. Çiçəkləri əvvəlcə çəhrayı rəngdə olur, tozlanma üçün həşaratları cəlb edir, tozlandıqdan sonra solğunlaşıb ağ rəngə çevrilir. Dünyaya Yunanıstandan – onun əsl vətəni Sidoniya torpağı olduğundan "Sidoniya" adı ilə hələ eramızdan 700 il əvvəl yayılmışdır. Olduqca zəngin vitamin tərkibli, xoş ətirli meyvələri ilə yanaşı, yarpaqları da müalicəvi əhəmiyyətə malikdir. Yetişib saralmış meyvələrinin tərkibində 2-15 faizə qədər şəkər, 2 faizədək alma, limon turşuları, ətirsaçan efirli maddələr, pektin, karotin, dəmir duzları vardır. Yayılmış sort və populiyasiyalarına görə bu meyvənin turş, turşməzə, kəmşirin, şirin (el arasında "şəkər heyva") olan cırdam, sarı heyva, həmçinin öz torpağımızda məşhur əndəmic sortları vardır. Alıcılar daha çox ətirli əndəmic heyva sorağında olurlar.

Heyvanın meyvəsindən mürəbbə, kompot, şirə, cem, marmelad hazırlanır. Xalq təbabətində təzə meyvə şirəsindən ödqovucu, mürəbbəsindən ürək qüvvətləndirici, kompot, cem və mətləşdirilmiş şirəsindən həzmyaxşılaşdırıcı kimi istifadə olunur. Bundan başqa, toxumlarının dəmləməsi sinə sətəlcəmi və tənəffüs yolları xəstəliklərinə, soyuqdəyməyə xeyirlidir. Yarpaqlarının təzə və qurudulmuş dəmləməsi ürək ağrılarının sakitləşdirilməsi məqsədi ilə içilir.

Arandan ta ucqar dağ kəndlərinədək istənilən torpaq şəraitində bitərək bar verir. Maraqlıdır ki, Naxçıvanın qışı nə qədər sərt olsa da, heyva möhkəm dözüm göstərir. Şaxtadan qorxmur. Çiçəkləyəndə tamaşasından doymaq olmur. Bəlkə, buna görədir ki, xalqımızın ulu sənətkarları oynaq "Heyvagülü" rəqs havasını bu gözəlliyə həsr edərək yaradıblar.

Heyva bitkisinin becərilməsi ilə 40 ilə yaxındır, məşğul oluram. Müşahidələrimə əsasən belə qənaətə gəlmişəm ki, heyva ağacı sıxlıq və kölgəli yerdə yaxşı məhsul vermir. Yaz və payız becərilməsi aparılmadıqda – gövdəətrafı bellənmədikdə, gövdə ətrafına üzvi gübrə verilmədikdə, susuz saxlanıldıqda ağac və ya kolu tez qocalır, budaqlarında quruma gedir, meyvələri iri olmur. Bir-birindən məsafəcə 8-10 metr aralı əkilmiş heyva ağaclarının gövdəətrafı yaz və payız fəsillərində yaxşı becərildikdə, xüsusən gövdə ətrafına üzvi gübrə verilib vaxtaşırı suvarıldıqda meyvələri iki dəfə irilir. Şəkər heyva şirinlikdən bəzən qovun kimi çatlayır.

Erkən yazda quru budaqları mütləq kəsilməlidir. Ağac və ya kolun orta hissəsi havalanmalı, yarpaqların Günəş şüası ilə təmasına şərait yaradılmalıdır. Bir dəfə təcrübə üçün noyabrın axırı, dekabrın əvvəllərində 100 ədəd turş və 100 ədəd şirin heyvanın birillik pöhrələrindən 30-40 santimetrlik qələmlər kəsib yaxşı yumşaldılmış torpağa cərgə ilə, 15-20 santimetr məsafədə əkdim. Qışda soyuq olmasın deyə, suvarmadan sonra üstünü torpaqla örtdüm. Erkən yazda üstünü açıb qələmlərə bərabər kəsim verdim. Payızdan yazadək qələmlə çoxaldılan qızılgül, üzüm, çinar, qələmə, söyüd pöhrələri cil verib yazda cücərdiyi halda, turş heyvanın bircəciyi də cücərmədi. Görünür turş, turşməzə heyvaları yalnız ağacın kök vermiş pöhrələri ilə artırmaq lazımdır.

Meyvəçilikdə azotlu, fosforlu, kaliumlu mineral gübrələrdən də istifadə olunur. Fosforlu gübrənin ziyanı yoxdur. Lakin azotlu gübrələr bütün meyvə-tərəvəzlərin məhsul hissəsində daha çox toplandığından, təbiidir ki, istər təzə, istərsə də konservləşdirilmiş halda yeyilərkən azot zəhərləmələri özünü tez-tez göstərir. Xüsusən bostan məhsullarından olan qovun, qarpızda. Odur ki, digər meyvə ağacları ilə yanaşı, heyva ağacına da aqrotexniki qulluq üzvi gübrələrə daha çox üstünlük verilməklə aparılmalıdır. Ağacın gövdəətrafı ağardılmalı, çiçəkləmədən əvvəl və sonra bir dəfə kəpənək qurdlarının sürfələrinə qarşı doza ölçüsündə preparatlar vurulmalıdır. Heyvadan "qəlyə" adlı milli xörəyin hazırlandığı kimi, onun ocaq və təndir közündə bişirilmişi də olduqca dadlı olur. Qanazlığında, vitamin təminatında ən gözəl qidadır. Elektrik sobalarında da bişirmək mümkündür. Həmərsinlə qarışıq hazırlanmış heyva kompotu qan təzyiqində çox faydalıdır.

Payız fəslində yaşıllaşdırma vaxtının sonunadək digər bitkilərlə yanaşı, heyva tingləri də əkmək faydalıdır. Çillələr düşənə yaxın verilən dondurma suyu bitkinin gövdəətrafı zonasındakı hər cür zərərverici və xəstəliktörədiciləri donduraraq məhv edir. Əndəmic və Nüsnüsdəki ətirli heyva sortlarını artırmaq olduqca faydalıdır. Süfrəmizi heyva meyvəsi ilə zənginləşdirmək üçün onun əkilib-becərilməsinə də əsl bağban zəhməti ilə yanaşmalıyıq.

**Qaşdar ƏLİYEV**

## Şəhər məktəbliləri arasında "Şən startlar" yarışı

***Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində şəhər ümumtəhsil məktəblərinin şagirdləri arasında "Şən startlar" yarışı keçirilib.***

"Heydər Əliyev ili" ilə əlaqədar olaraq keçirilən yarışda birinci yerə 5 nömrəli tam orta məktəbin şagirdləri layiq görülüblər. 7 nömrəli tam orta məktəbin şagirdləri ikinci, 2 və 15 nömrəli tam orta məktəbin şagirdləri isə üçüncü yerə çıxıblar. Fərqləndirici yerə isə 17 nömrəli tam orta məktəbin şagirdləri sahiblənibl ər.

Sözügedən mərkəzin, Naxçıvan Şəhər Təhsil Şöbəsinin, Gənclər və İdman İdarəsinin təşkil etdiyi yarışın qaliblərinə diplomlar təqdim edilib.

**Xəbərlər şöbəsi**

## Fiziki imkanları məhdud musiqiçilərimiz ölkə miqyaslı bədii yaradıcılıq müsabiqəsində müvəffəqiyyətlə çıxış ediblər

Fiziki imkanları məhdud vətəndaşlarımızın, eləcə də sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların istedad və qabiliyyətlərinin aşkara çıxarılması, yaradıcılıq əzminin yüksəldilməsi, onların cəmiyyətə inteqrasiyasının təmin edilməsi məqsədilə 26-28 noyabr tarixlərində Bakı şəhərində Əlillərin VI Ümumrespublika Bədii Yaradıcılıq Baxış-Müsabiqəsinin final mərhələsi keçirilib. Müsabiqədə məhdud fiziki imkanlı şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar muğam, mahnı, rəqs, instrumental ifaçılıq, poeziya, bədii qiraət sahəsində qabiliyyətlərini nümayiş etdiriblər. Baxış-müsabiqədə muxtar respublikamızı musiqi istedadı olan 4 və bədii qiraət qabiliyyəti olan 1 nəfər təmsil edib.

Böyük maraqla qarşılanan baxış-müsabiqənin qalibləri sırasında həmyerlilərimiz də vardır. Belə ki, müsabiqənin sonunda münsiflər heyətinin rəyinə əsasən, musiqi alətlərində ifaya görə Naxçıvan şəhər sakini Sənan Salmanov (tar) ikinci yerə, mahnı ifaçıları arasında Naxçıvan şəhər sakini Zöhrab İsmayılov (muğam), Sədərək rayon sakini Məhəmməd Əhmədov (mahnı) üçüncü yerə çıxıblar. Sağlamlıq imkanları məhdud uşaqlar arasında müsabiqənin qalibləri Naxçıvan şəhər sakini Bənövşə Salmanova (qanun) və Babək rayon sakini Kənan Feyzullayev isə (bədii qiraət) xüsusi diploma layiq görülüblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## "Gənclik" Mərkəzində film nümayiş olunub

***Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində "Fəryad" filmi nümayiş etdirilib.***

Gənclərdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onlara dövlətçiliyə sədaqət ruhunun aşılanması məqsədilə təşkil edilən tədbirdə muxtar respublikamızın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları iştirak ediblər. Filmdə "dənizdən dənizə böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan ermənilərin Qarabağda törətdikləri vəhşiliklər, qəddar düşmənin Xocalı şəhərində həyata keçirdiyi qətliamın özləri tərəfindən sevinclə qarşılanması tamaşaçı yaddaşında qəddar millət obrazını formalaşdırır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*İtmişdir*

Əsədullayev Fariz Hafiz oğlunun adına verilmiş MN-0037678 seriya nömrəli kapitanın şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

*Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzinin rəisi Rəşad Həsənov və mərkəzin kollektivi iş yoldaşları Elşad Fətullayevə, əmisi

**SABİRİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 1083